# “Mən indi çiçəklənən Azərbaycan görürəm və hər yerdə bu ölkəni nümunə göstərirəm”

## *Rusiya Dövlət Dumasının komitə sədri Leonid Kalaşnikov bu fikirdədir*



***❐ Rusiyalı politoloq Leonid Kalaşnikovun müsahibələrinin birində Azərbaycan haqqında belə yüksək fikir səsləndirməsi təsadüfi deyil. Dövlət başçımızın həyata keçirdiyi uğurlu daxili və xarici siyasət respublikamızı inkişaf etmiş dövlətlər sırasına qoşmaqdadır. Dünyanı maliyyə və iqtisadi böhranın bürüdüyü bir vaxtda Azərbaycanda həyata keçirilən irimiqyaslı beynəlxalq layihələr, o cümlədən sosial proqramlar ölkəmizin iqtisadi qüdrətini artırmaqla yanaşı, əhalinin həyat səviyyəsini də daha da yaxşılaşdırır. Bu uğurlar beynəlxalq ictimaiyyətin də diqqətindən yayınmır. Rusiyalı politoloqun ölkəmiz haqqında söylədiyi fikirlərin əsasını da məhz bu uğurlar təşkil edir.***

Həm tanınmış ictimai-siyasi xadimlərin, həm də politoloqların rəyləri də təsdiqləyir ki, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu ilbəil artmaqdadır. Bu, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında da ölkəmizin mövqeyinin dəstəklənməsinə öz təsirini göstərir. Son illər nüfuzlu beynəlxalq təşkilatların, dövlətlərin rəhbər şəxslərinin Azərbaycana səfərlərinin intensiv xarakter almasının əsas səbəblərindən biri də budur. Ölkəmizin beynəlxalq müstəvidə nüfuzunun güclənməsi baxımından bu səfərlərin əhəmiyyəti çox böyükdür. Bu nüfuzun qazanılması əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və hazırda Prezident İlham Əliyevin davam etdirdiyi uğurlu xarici siyasətin nəticəsidir. Həmin siyasətin nəticəsi olaraq, hazırda Azərbaycan regionda liderliyini qoruyub saxlayır. Eyni zamanda, ölkəmiz Cənubi Qafqazın iqtisadi baxımdan da lider dövlətidir.

Artıq beynəlxalq ictimaiyyət reallıqları olduğu kimi qəbul edir, Azərbaycanın nüfuzlu müstəqil dövlət olduğunu təsdiqləyir. Respublikamızın sosial-iqtisadi, siyasi, beynəlxalq və mədəni sahələrdə əldə etdiyi uğurlar belə fikirlərin səsləndirilməsinə zəmin yaradır. Dünyanın tanınmış ictimai-siyasi xadimləri də etiraf edirlər ki, Azərbaycan yüksələn xətlə inkişaf edir.

Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev də bu fikirdədir. O, ölkəmizin inkişafına münasibət bildirərkən deyib: “Coğrafi mövqeyinə görə Şərqlə Qərb arasında yerləşən Azərbaycan üçün, sanki, tarixin özü tərəfindən böyük missiya hazırlanıb. Respublika inamla dünya siyasətində lider mövqelərə doğru hərəkət edir ki, bu da Azərbaycan iqtisadiyyatının istər intensiv inkişafı, istərsə də ölkədə ictimai-siyasi vəziyyətin sabit olması ilə şərtlənir. Xarici siyasət sahəsində münasibətlərini düzgün qurması sayəsində, Azərbaycan qarşılıqlı fəaliyyətin müxtəlif formatlarının



tam dəyərli iştirakçısına, ən vacib problemlərə dair forumların keçirildiyi beynəlxalq mərkəzə çevrilib”.

Prezident İlham Əliyevin apardığı xarici siyasət kursu Azərbaycanın milli maraqlarına söykənən bir siyasətdir. Bu siyasət müstəqil fəaliyyəti və öz dəsti – xətti ilə dünya birliyinin diqqət mərkəzindədir. Hadisələrin gedişi də göstərir ki, bu gün dünyanın heç də bütün ölkələri bu və ya digər məsələlərin həllində müstəqil siyasət yeritmək iqtidarında deyil. Elə ölkələr var ki, üçüncü bir dövlətin və yaxud güc mərkəzinin təsiri altındadır. Həmin mərkəzlərin verdikləri tapşırıqları sözsüz yerinə yetirmək məcburiyyətindədirlər. Elə ölkələr var ki, məsələn, Cənubi Qafqazda Ermənistan üçüncü dövlətin forpostu rolunu oynayır. Azərbaycan isə cəmi 28 illik müstəqillik tarixinə malik olsa da, sürətlə inkişaf edən, dünya birliyinə inteqrasiya edən, heç bir dövlətdən asılı olmayaraq müstəqil siyasət yürüdən ölkələr sırasındadır. Qətiyyətlə demək olar ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz bütün sahələr üzrə, o cümlədən beynəlxalq sahədə müstəqil siyasət həyata keçirir, heç bir dövlətin daxili işinə qarışmır və digər ölkələrin də bizim daxili işlərimizə qarışmasına imkan vermir. Son illər həm daxildə, həm də xarici siyasətdə baş verənlər də bunu təsdiqləyir. Söz yox ki, ölkəmizin inkişafını gözü götürməyən anti-Azərbaycan qüvvələr, həmçinin onların əlində alətə çevrilmiş radikal müxalifət bu uğurlara kölgə salmaq üçün minbir oyundan çıxır, təhdid və təzyiqlərə əl atır.

***(ardı 2-ci səhifədə)***

# “Mən indi çiçəklənən Azərbaycan görürəm və hər yerdə bu ölkəni nümunə göstərirəm”

*(əvvəli 1-ci səhifədə)*

Ancaq ölkə başçısının düşünülmüş siyasi strategiyası bədxahların bütün ümidlərini puç edir, bəd niyyətlərini ürəklərində qoyur. Diqqət yetirin, dünyanı maliyyə və iqtisadi böhran ağuşuna aldığı bir vaxtda 2019-cu il Azərbaycanın müasir siyasi tarixinə dinamik inkişaf, sabitlik, dayanıqlı iqtisadiyyat, ciddi islahatlar, beynəlxalq tələblərə cavab verən yeni istehsal və sənaye müəssisələrinin yaradılması, aqrar sahədə əsaslı dönüş ili kimi daxil oldu. Prezident İlham Əliyevin milli maraqlara söykənən praqmatik siyasəti Azərbaycanın uğurlarının əsas təminatı kimi öz bəhrəsini verib. Əldə olunan nəticələr, Azərbaycanın dünyada siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrdə böyük nailiyyətlər qazanan ölkə kimi sürətli inkişaf, tərəqqi nümunəsi göstərdiyini sübut edib. Ən əsası isə müstəqil Azərbaycan dövlətinin daha parlaq gələcək üçün qələbələr, nailiyyətlərlə dolu tarixinin yeni səhifələri açılıb.

Misirin “Əl-Mənsuriyyə” qəzetində dərc olunan bir məqalədə bu məqamlar öz əksini tapıb. Ölkəmizin inkişafından və xarici aləmdə əhəmiyyətli dövlətə çevrilməsindən bəhs edən həmin məqalədə qeyd edilir ki, beynəlxalq münasibətlərin fəal iştirakçısı, dünya birliyində böyük nüfuz sahibi olan Azərbaycan öz siyasətində beynəlxalq hüququn əsas prinsip və normalarına, o cümlədən ölkənin suverenliyinə və ərazi bütövlüyünə hörmət, başqa dövlətlərin daxili işlərinə qarışmamaq kimi prinsiplərə riayət olunmasına sadiqdir. Müəllif bildirir ki, Azərbaycanın Qoşulmama Hərəkatının üzvü olması və bu hərəkatda fəal iştirakı sayəsində hazırda Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində bu ölkənin mövqeyi daha artıq dəstəklənir.

Azərbaycanın qazandığı uğurlar Yaponiyanın “Himalaya” radiosunda da səsləndirilib. Qeyd edilib ki, Prezident İlham Əliyevin ardıcıl və düşünülmüş siyasəti nəticəsində Azərbaycan böyük uğurlara imza atır. Bakı böyük beynəlxalq tədbirlərin, idman və musiqi yarışlarının keçirildiyi mühüm mərkəzə çevrilib. Azərbaycanın müasir turizm potensialı var, burada mövcud olan tarixi abidələr, təbii müalicə ocaqları əcnəbilər üçün cəlbedicidir.

Son illər dünyada baş verən sürətli və ziddiyyətli geosiyasi dəyişikliklər fonunda düşünülmüş siyasət sayəsində Azərbaycanın güclü, hərtərəfli inkişaf etmiş ölkə kimi beynəlxalq aləmdə nüfuzu gündən-günə artır. Ölkəmizin dünyada artan siyasi nüfuzu, mövqeyinin möhkəmlənməsi ilə yanaşı, iqtisadi reytinqi də inkişaf edir. Bunu beynəlxalq reytinq agentliklərinin hesabatları da təsdiqləyir.

Prezident İlham Əliyevin düşünülmüş siyasi kursu Ermənistanın işğalçı siyasətini bütün dünyaya bəyan edib. Bu il oktyabrın əvvəlində Rusiya Federasiyasının Soçi şəhərində keçirilən “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında Prezident İlham Əliyevin çıxışı, Ermənistanın baş naziri Nikol Paşinyanın Xankəndidə səsləndirdiyi “Qarabağ Ermənistanın hissəsidir və nöqtə” hədyanına, “Qarabağ tarixi əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi” deməklə konkret cavabı dünyada geniş əks-səda doğurub. Ardınca, oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının iclasında tarixi faktlara istinad edən respublikamızın rəhbəri MDB məkanında, xüsusən, Ermənistanda faşizmin təbliğatının aparıldığını, faşizmə xidmət edən şəxslərin xatirəsinə abidə ucaldılmasının qəbuledilməz olduğunu təəssüflə iclas iştirakçılarının diqqətinə çatdırdı. Prezident dedi ki, 2016-cı ildə Ermənistan İrəvanın mərkəzində Böyük Vətən müharibəsində faşistlərə yardım etmiş Qaregin Njdeyə abidə ucaldıb. Dövlət başçısı Qaregin Njdenin birbaşa faşistlərlə əməkdaşlıq etdiyini konkret faktlarla sübut etdi. Dövlətimizin başçısı bununla da Paşinyanı susduraraq, onun iddialarını darmadağın etdi. Ölkə rəhbərinin bu çıxışından sonra erməni mətbuatı Paşinyanı çox kəskin tənqid etdi. Bildirildi ki, Ermənistanın baş naziri həddindən artıq səriştəsiz, savadsız və populist siyasətçidir. Prezident İlham Əliyev isə lazımi yerdə, lazımi məqamda, Azərbaycan həqiqətlərini ən yüksək tribunadan səsləndirir və bunları tarixi faktlarla təsdiqləyir.

Rusiyalı politoloq Sergey Makarovun səsləndirdiyi fikirlər də bunu təsdiqləyir: “Prezident İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət qazanıb. “Valday” Beynəlxalq Diskussiya Klubunun Soçidə keçirilmiş iclasında iştirak edən akademik və media birliklərinin nümayəndələri Dağlıq Qarabağ münaqişəsi barədə lazımınca məlumatlı deyildilər. Bu mənada, Azərbaycan Prezidenti mürəkkəb bir auditoriya qarşısında çıxış edirdi. Lakin Prezident İlham Əliyev öz zəngin təcrübəsi və böyük diplomatik istedadı sayəsində mövqeyi dəqiq və aydın şərh etməyə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması kontekstində Azərbaycanın maraqlarının və fəaliyyətinin məntiqini izah etməyə müvəffəq oldu”.

Prezident İlham Əliyev ölkəmizin haqq işini bütün kürsülərdə arqumentlərlə, tarixi faktlarla, reallıqlarla, beynəlxalq hüquq normaları əsasında müdafiə edir və kiminsə bu arqumentlərə qarşı hər hansı bir irad tutması qeyri-mümkündür. Çünki dövlətimizin başçısı əsl həqiqəti olduğu kimi diqqətə çatdırır və bunu bütün dünyanın eşidə biləcəyi kürsülərdən deyir.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2019.- 20 oktyabr.- S.1-2.